**UOT 327-027.21**

# NEOREALİZM REGİONAL TƏDQİQATLAR ÜÇÜN NƏZƏRİ-METODOLOJİ ÇƏRÇİVƏ KİMİ

**Vəfa İSMAYILOVA***

Məqalə redaksiyaya daxil olmuşdur: 4 fevral 2025; çapa qəbul edilmişdir: 28 aprel 2025; online-da çap edilmişdir: 15 may 2025.

Received: 4th of February, 2025; accepted: 28th of April, 2025; published online: 15th of May, 2025.

**Açar sözlər:** *neorealizm, regional tədqiqatlar, nəzəri-metodoloji çərçivə, Cənubi Qafqaz*

## Giriş

Neorealizm beynəlxalq münasibətlər nəzəriyyəsində mühüm yanaşmalardan biri olaraq, dövlətlərin davranışlarının beynəlxalq sistemin strukturundan necə təsirləndiyini izah edir. Bu nəzəriyyə, xüsusilə müasir dövrdə regional tədqiqatlarda aktual olaraq qalmaqdadır, çünki regionlararası münasibətlərin və təhlükəsizlik problemlərinin həlli beynəlxalq sistemin güc balansına və struktur dinamikalarına birbaşa bağlıdır [9, s. 84]. Regional tədqiqatlar qlobal sistemin əsas elementlərini özündə əks etdirdiyi üçün neorealizm həm nəzəri, həm də metodoloji çərçivə kimi xüsusi əhəmiyyət kəsb edir. Hazırkı dövrdə Cənubi Qafqaz, Yaxın Şərq və Cənubi Asiya kimi regionlardakı qarşıdurmalar və güc dinamikaları, bu yanaşmanın təcrübəli tətbiqini aktual edən əsas məsələlərdir. Bu baxımdan, məqalənin məqsədi neorealizmin regional tədqiqatlarda tətbiq imkanlarını araşdırmaq və bu yanaşmanın təqdim etdiyi nəzəri-metodoloji alətləri təhlil etməkdir. Məqalə həmçinin neorealizmin əsas müddəalarını təhlil edərək, onun regional sistemlərin öyrənilməsinə töhfəsini göstərməyə çalışır. Bununla yanaşı, neorealizmin tətbiqində mövcud olan məhdudiyyətlər də dəyərləndirilir və bu nəzəriyyənin digər yanaşmalarla inteqrasiya edilməsi ehtimalı müzakirə olunur. Mövzu ilə bağlı mövcud ədəbiyyatın dərin təhlili bu sahədəki bilik bazasını zənginləşdirmək və tədqiqatçılar üçün yeni perspektivlər təqdim etmək baxımından əhəmiyyətlidir.

Məqalədə istifadə olunan tədqiqat metodu analitik və müqayisəli yanaşmalardan ibarətdir. İlk növbədə, neorealizmin fundamental prinsipləri təhlil edilir və onların regional tədqiqatlara tətbiqi nümunələri araşdırılır. Daha sonra müxtəlif regionlarda neorealizmin analitik çərçivəsinin necə tətbiq olunduğu müqayisəli şəkildə öyrəniləcək. Bu yanaşma həm nəzəri, həm də təcrübəli səviyyədə mövcud olan əsas problemləri və imkanları ortaya qoymağa imkan verir. Tədqiqatın əsasını mövcud ədəbiyyatın tənqidi təhlili və praktiki nümunələrin sistemli şəkildə araşdırılması təşkil edir.

## 1. Neorealizm nəzəriyyəsinin fundamental prinsipləri və inkişaf tarixi

Neorealizm beynəlxalq münasibətlər nəzəriyyəsində realizm ənənəsindən inkişaf edən və struktur faktorlara əsaslanan bir yanaşmadır. Bu nəzəriyyə dövlətlərin davranışlarını beynəlxalq sistemin anarxik təbiəti ilə izah edir və bu sistemin dövlətlərin maraqlarını

* *doktorant, Bakı Dövlət Universiteti*
*e-mail:* vafaismayilova@shahgroup.az

**https://doi.org/10.30546/25194011.2025.14.2.1014**

və qərarlarını necə formalaşdırdığını vurğulayır. Neorealistlərə görə, beynəlxalq münasibətlərdə anarxiya hökm sürdüyü üçün dövlətlər özlərinin təhlükəsizliyini təmin etmək üçün güc balansı axtarırlar. Bu nəzəriyyə dövlətlərin daxili xüsusiyyətlərindən çox, beynəlxalq sistemin strukturunun onların davranışlarını müəyyən etdiyini irəli sürür [7, s. 290].

Neorealizmin inkişafı XX əsrin ikinci yarısında, xüsusilə İkinci Dünya Müharibəsindən sonra baş verdi. Bu dövrdə realizm beynəlxalq münasibətlərin əsas nəzəriyyəsi olsa da, onun dövlətlərin davranışlarını izah etməkdə məhdudiyyətləri diqqətə çatdırıldı. Soyuq müharibə dövründə dövlətlər arasındakı münasibətlərin kompleksliyi realizmin bəzi müddəalarını yenidən nəzərdən keçirmək ehtiyacını ortaya qoydu. Neorealizm bu kontekstdə meydana gəldi və realizmin ənənəvi güc balansı nəzəriyyəsini beynəlxalq sistemin struktur xüsusiyyətləri ilə genişləndirdi.

Neorealizmin əsas inkişaf dövrü 1970-1980-ci illərə təsadüf edir. Kennet Uoltzun 1979-cu ildə nəşr olunan "Beynəlxalq siyasətin nəzəriyyəsi (*Theory of International Politics*)" əsəri bu yanaşmanı nəzəri baza olaraq möhkəmləndirdi. K.Uoltz realizmin subyektiv yanaşmalarını tənqid edərək, beynəlxalq sistemin obyektiv xüsusiyyətlərini araşdırmağı təklif etdi. Bu yanaşma realizmin dövlət mərkəzli perspektivini qorusa da, onu struktur səviyyəsində təhlillərlə zənginləşdirdi. Onun strukturalist yanaşması beynəlxalq münasibətlərdə anarxiya və sistem səviyyəsində olan güc dinamikalarının dövlətlərin davranışlarını necə formalaşdırdığını əsaslandırdı. Uoltzun işləri realizmi daha elmi bir çərçivəyə salmağa cəhd etdi və beynəlxalq münasibətləri riyazi modellərlə izah etməyə yönəlmiş yanaşmanı inkişaf etdirdi [12, s. 303-304].

Onun ardından Robert Qilpin, Stefen Uolt, Con Merşaymer kimi alimlər neorealizmi müxtəlif aspektlərdən inkişaf etdirdilər. Robert Qilpin, xüsusilə beynəlxalq iqtisadi sistemin güc siyasəti ilə qarşılıqlı təsirini izah edərək, neorealizmin iqtisadi məsələlərə tətbiqini irəli sürdü. Merşaymer isə hücumçu realizm nəzəriyyəsi ilə neorealizmin bəzi müddəalarını genişləndirərək, güc artımı üçün dövlətlərin hərbi və strateji addımlarına diqqət çəkdi [12, s. 306].

Neorealizm bir neçə fundamental prinsipə əsaslanır. Birinci prinsip beynəlxalq sistemin anarxik təbiətidir, yəni sistemdə hər hansı bir mərkəzi hakimiyyət yoxdur və dövlətlər öz təhlükəsizliklərini təmin etmək üçün müstəqil fəaliyyət göstərirlər. İkinci prinsip dövlətlərin əsas maraqlarının öz təhlükəsizliklərini təmin etmək və güclərini qorumaq olduğu fikridir. Üçüncü prinsip güc balansı nəzəriyyəsidir, yəni dövlətlər sistemdəki güc disbalansını minimuma endirmək üçün birləşirlər. Dördüncü prinsip isə beynəlxalq sistemin strukturunun dövlətlərin davranışlarını müəyyən edən əsas faktor olmasıdır [4].

Neorealizmin konkret müddəaları arasında birinci olaraq güc balansı nəzəriyyəsi dayanır; bu nəzəriyyəyə görə dövlətlər güc boşluqlarını aradan qaldırmaq üçün koalisiyalar yaradırlar. İkinci müddəa dövlətlərin qərarlarını beynəlxalq sistemin strukturu, yəni böyük güclərin sayı və resurslarının paylanması müəyyən edir. Üçüncü müddəa dövlətlərin əsas hədəfinin mövcud status-kvonu qorumaq və ya beynəlxalq sistemdə öz mövqelərini gücləndirmək olmasıdır. Dördüncü müddəa dövlətlərin davranışlarının əsasən sistemdən asılı olduğu və daxili faktorların ikinci rola malik olmasıdır [1, s. 514-516].

Neorealizm realizmin bəzi əsas müddəalarını qoruyaraq, digərlərini yenidən şərh edir. Realizm fərdi dövlətlərin davranışlarına və liderlərin şəxsi maraqlarına daha çox əhəmiyyət verərkən, neorealizm bu yanaşmanı tənqid edir və dövlətlərin davranışlarının beynəlxalq sistemin strukturundan qaynaqlandığını irəli sürür. Məsələn, realizmdə dövlətlərin motivasiyaları liderlərin qərarları ilə izah olunsa da, neorealizmdə bu motivasiyalar sistemin anarxik xüsusiyyətlərindən qaynaqlanır.

Bundan əlavə, realizm gücün əldə edilməsini dövlətlərin əsas hədəfi kimi görərkən, neorealizm gücün sadəcə bir vasitə olduğunu və əsas məqsədin təhlükəsizlik olduğunu

vurğulayır. Realizm bir çox hallarda dövlətlərin daxili siyasətlərini beynəlxalq davranışlarının əsas təməli kimi qəbul etdiyi halda, neorealizm dövlətlərin daxili siyasətlərini nəzərə almır və beynəlxalq sistemin təzyiqlərini ön planda saxlayır. Bu fərqlər neorealizmin beynəlxalq münasibətləri daha obyektiv və struktur səviyyəsində təhlil etmək məqsədini əks etdirir [11, s. 184-185].

Son on ildə neorealizm beynəlxalq münasibətlər nəzəriyyəsində mövqeyini qorumaqla yanaşı, yeni tədqiqatçılar tərəfindən daha da inkişaf etdirilmişdir. Müasir beynəlxalq sistemdəki dəyişikliklər, xüsusilə Rusiya-Qərb münasibətləri, Çinin yüksəlişi və qlobal təhlükəsizlik arxitekturasının dəyişməsi neorealist yanaşmanın yeni təhlil çərçivələri tələb etdiyini göstərmişdir. Bu dövrdə neorealizmi yenidən şərh edən tədqiqatçılar, nəzəriyyənin həm məhdudiyyətlərini aşkar etmiş, həm də onun tətbiq imkanlarını genişləndirmişlər. Son on ilin önəmli neorealist tədqiqatçılarından biri Nuno P.Monteyrodur. O, "qeyri-sabit sülh" konsepsiyası ilə neorealizmin əsas tezislərini yenidən formalaşdıraraq iddia edir ki, təkqütblü sistemdə belə sülh sabit deyil. Monteyro ABŞ-ın hegemonluq siyasətini təhlil edərək göstərir ki, hegemon dövlətlər təhlükəsizlik axtarışında daimi olaraq yeni rəqiblərlə üzləşirlər və bu, davamlı münaqişə riskini artırır.

Başqa bir müasir tədqiqatçı Uilyam Uolfortdur. O, qlobal güc balansının dəyişkənliyini analiz edərək, neorealizmin statik güc anlayışına tənqidi yanaşır və güc dinamikasının daha çevik bir model üzərindən izah edilməsinin vacibliyini vurğulayır. Onun fikrincə, güc balansı yalnız hərbi potensiala deyil, eyni zamanda iqtisadi və texnoloji inkişaf kimi faktorlarla da ölçülməlidir.

Yan Xuetong da müasir dövrün neorealist tədqiqatçıları arasında mühüm yer tutur. O, Çinin yüksəlişini "etik-realizm" çərçivəsində izah edərək, dövlətlərin güc siyasətini sadəcə material resurslar üzərindən deyil, ideoloji və etik dəyərlər vasitəsilə də formalaşdırdığını irəli sürür. Bu yanaşma neorealizmin ənənəvi maddi güc fokusundan kənara çıxaraq, beynəlxalq siyasətdə yeni bir təhlil müstəvisi yaradır.

Beləliklə, görürük ki, son on ildə neorealizmin tədqiqatçıları beynəlxalq münasibətlərdə baş verən dəyişiklikləri nəzərə alaraq nəzəriyyəni daha dinamik və kontekstual hala gətirmişlər. Nuno P.Monteyro, Uilyam Uolfort və Yan Xuetong kimi alimlər neorealist yanaşmanın ənənəvi sərhədlərini genişləndirmiş, güc siyasətinin yeni formalarını təhlil etmiş və beynəlxalq münasibətlərin daha mürəkkəb bir şəkil aldığını vurğulamışlar. Bu, neorealizmin hələ də aktual olduğunu, lakin dəyişən qlobal reallıqlara uyğunlaşmaq üçün daima yenilənməyə ehtiyac duyduğunu göstərir [14].

## 2. Regional tədqiqatlarda neorealizmin tətbiqi imkanları

Neorealizm beynəlxalq münasibətlər nəzəriyyəsində struktur faktorları və beynəlxalq sistemin anarxik təbiətini vurğulayan bir yanaşma olaraq geniş qəbul olunur. Onun əsas müddəaları və analitik çərçivəsi regional tədqiqatlara da tətbiq edilə bilər. Regional sistemlərin öyrənilməsi dövlətlərin davranışlarının və onların qarşılıqlı əlaqələrinin struktur müstəvisində araşdırılmasını tələb edir. Neorealizm bu cür tədqiqatlarda həm nəzəri-metodoloji baza, həm də analitik alət kimi mühüm imkanlar təqdim edir. Neorealizmin regional tədqiqatlarda tətbiqi ilk növbədə onun beynəlxalq sistemin strukturunu analiz etmə qabiliyyətindən qaynaqlanır. Neorealizm dövlətlərin davranışlarını beynəlxalq anarxiyanın şərtləndirdiyini və güc balansının bu davranışların əsas determinantı olduğunu vurğulayır. Regional sistemlər də öz spesifik xüsusiyyətlərinə malik olsalar da, qlobal sistemin strukturunun təsiri altında formalaşır [6]. Məsələn, Cənubi Qafqaz regionunda Azərbaycan, Ermənistan və Gürcüstanın davranışları beynəlxalq sistemdəki böyük güclərin, xüsusən də Rusiya, Türkiyə, Avropa Birliyi və ABŞ-ın təsirləri ilə müəyyən olunur. Neorealizm bu regionun güc balansı müstəvisində təhlili üçün nəzəri əsas yaradır və regional sistemlərin qlobal sistemlə əlaqəsini izah etməyə imkan verir.

Regional tədqiqatlarda neorealizmin tətbiqi dövlətlərin əsas məqsədinin təhlükəsizlik və güc balansını qorumaq olduğunu nəzərə alır. Məsələn, Yaxın Şərqdə İran və Səudiyyə Ərəbistanı arasındakı rəqabət, neorealist yanaşmada regional güc balansı müstəvisində təhlil edilə bilər. Bu rəqabət təkcə regional dinamikalarla məhdudlaşmır, eyni zamanda beynəlxalq sistemdəki güc dinamikalarından da təsirlənir. Beləliklə, neorealizm tədqiqatçılara həm regional, həm də qlobal səviyyədə dövlətlərin davranışlarını izah etmək üçün bir çərçivə təqdim edir [8].

Neorealist yanaşma regional təhlükəsizlik komplekslərinin təhlilində də geniş istifadə olunur. Berri Buzan və Oli Vever kimi alimlərin inkişaf etdirdiyi bu konsept, müəyyən bir regiondakı dövlətlərin təhlükəsizlik məsələlərinin qarşılıqlı əlaqədə olduğunu iddia edir. Neorealizm regional təhlükəsizlik komplekslərinin formalaşmasını beynəlxalq anarxiyanın nəticəsi olaraq izah edə bilər [2]. Məsələn, postsovet məkanında Rusiya Federasiyasının keçmiş SSRİ respublikalarına təsir göstərmə cəhdləri neorealist çərçivədə regional güc balansının saxlanılması kimi qiymətləndirilə bilər. Cənubi Asiyada Hindistan və Pakistan arasındakı təhlükəsizlik dilemması da neorealist yanaşmanın tətbiq sahələrindən biridir. Bu iki ölkənin hərbi və nüvə güc yarışını, beynəlxalq sistemdəki anarxiya şəraitində öz təhlükəsizliklərini təmin etmə cəhdləri kimi izah etmək mümkündür. Neorealizm bu cür qarşıdurmalarda struktur faktorların rolunu vurğulamaqla, regional təhlükəsizlik komplekslərinin mahiyyətini başa düşməyə kömək edir.

Regional tədqiqatlarda neorealizmin tətbiqinin metodoloji üstünlüklərindən biri onun sadə, lakin təsirli analitik modeli təklif etməsidir. Neorealizm əsas diqqəti dövlətlərarası münasibətlərin struktur elementlərinə yönəldir və daxili siyasət faktorlarını ikinci dərəcəli hesab edir. Bu yanaşma, tədqiqatçıların diqqətini beynəlxalq sistemin və regional sistemin struktur xarakteristikalarına cəmləməyə imkan verir [10, s. 389]. Məsələn, Avropa İttifaqının Şərq Tərəfdaşlığı proqramını analiz edərkən, neorealizm proqramın yalnız iqtisadi və siyasi təsirlərini deyil, həm də regional güc balansına təsirini araşdırmağa imkan verir.

Neorealizmin başqa bir metodoloji üstünlüyü müxtəlif regionların müqayisəli təhlilinə imkan yaratmasıdır. Tədqiqatçılar fərqli regional sistemləri müqayisə edərək, güc balansı və təhlükəsizlik siyasətləri arasındakı oxşarlıqları və fərqləri ortaya çıxara bilərlər. Məsələn, Cənubi Qafqaz və Balkan regionlarını müqayisə edərkən, hər iki regionda böyük güclərin təsirini və regional dinamikanın bu təsirlərdən necə formalaşdığını analiz etmək mümkündür [3].

Neorealizmin regional tədqiqatlarda tətbiqi bir sıra məhdudiyyətlərə malikdir. İlk olaraq, bu nəzəriyyə dövlətlərin daxili siyasətlərini və onların daxili dinamikalarını kifayət qədər nəzərə almır. Regional sistemlərdə etnik, dini və ideoloji faktorlar da mühüm rol oynayır və bu faktorlar bəzən struktur tədqiqatların xaricində qalır. Məsələn, Yaxın Şərqdəki qarşıdurmaları yalnız güc balansı ilə izah etmək çətindir, çünki bu münaqişələrdə dini və məzhəb fərqləri də mühüm rol oynayır. Bundan əlavə, neorealizm regional aktorların qeyri-dövlət oyunçuları ilə qarşılıqlı əlaqəsini izah etməkdə məhdudiyyətlərlə qarşılaşır. Qeyri-dövlət aktorları, xüsusilə terror təşkilatları və beynəlxalq iqtisadi subyektlər bəzi regionlarda dövlətlər qədər təsirli ola bilirlər. Neorealist yanaşma bu cür subyektlərin regional güc balansına təsirini kifayət qədər dəqiq izah edə bilmir [5, s. 18-19].

Bundan əlavə, Çin və Tayvan arasındakı münasibətlər beynəlxalq münasibətlər nəzəriyyəsində neorealizmin əsas prinsipləri ilə izah edilə bilən kompleks bir güc mübarizəsidir. Neorealizmə görə, Çin və Tayvan arasındakı gərginlik, xüsusilə ABŞ-ın regiondakı rolu ilə birlikdə güc siyasətinin, təhlükəsizlik dilemmasının və hegemonluq cəhdlərinin bariz nümunəsi kimi ortaya çıxır. Çin Tayvanı öz ərazi bütövlüyünün bir hissəsi hesab edir və "vahid Çin" siyasətini əsaslandıraraq Tayvanın müstəqil beynəlxalq subyekt kimi tanınmasına qarşı çıxır. Bu vəziyyət, Çinin gücünü artırmaq və ABŞ kimi xarici aktorları balanslaşdırmaq cəhdləri ilə sıx bağlıdır.

Neorealizm kontekstində Çin və Tayvan münasibətləri güc balansı nəzəriyyəsi ilə izah oluna bilər. Çin, Asiya-Sakit Okean regionunda dominant güc olmağa çalışır və Tayvan üzərində nəzarəti bərpa etmək bu strategiyanın mərkəzində dayanır. Tayvan isə öz təhlükəsizliyini təmin etmək üçün ABŞ ilə güclü hərbi və diplomatik əlaqələr saxlayır. Bu, neorealizmdəki "təhlükəsizlik dilemması" anlayışını önə çıxarır. Çin Tayvanın silahlanmasını və ABŞ-ın müdaxilə potensialını öz təhlükəsizliyi üçün təhdid kimi qəbul edir, bu isə regionda daha çox silahlanmaya və gərginliyin artmasına səbəb olur. Eyni zamanda, ABŞ Tayvanın təhlükəsizliyini dəstəkləməklə Çinlə güc balansını qorumağa çalışır. Bu qarşılıqlı təsirlər nəticəsində Çin və Tayvan arasındakı münasibətlər sadəcə ikitərəfli deyil, eyni zamanda regional və qlobal güc dinamikalarının bir hissəsi kimi formalaşır.

Çin və Tayvan arasındakı münasibətlərin neorealist yanaşma ilə izahı göstərir ki, bu münasibətlər sadəcə siyasi və ideoloji zəmində deyil, həm də beynəlxalq sistemin struktur xüsusiyyətləri ilə bağlıdır. Güc balansı, təhlükəsizlik dilemması və hegemonluq cəhdləri bu qarşıdurmanın əsas hərəkətverici qüvvələridir. Çin Tayvan üzərində suverenlik iddiası ilə öz regional liderliyini möhkəmləndirməyə çalışır, Tayvan isə beynəlxalq dəstək axtarışı ilə öz təhlükəsizliyini təmin etməyə çalışır. Bu dinamika ABŞ və digər beynəlxalq aktorların iştirakı ilə daha da mürəkkəbləşir, nəticədə Asiya-Sakit Okean regionunda davamlı bir gərginlik mühiti yaranır. Neorealizmin bu münasibətləri izah etməkdəki üstünlüyü, dövlətlərin güc və təhlükəsizlik maraqları əsasında davranışlarını sistematik şəkildə təhlil etməyə imkan yaratmasıdır [13].

Beləliklə, neorealizm regional tədqiqatlarda nəzəri və metodoloji baza kimi mühüm imkanlar təqdim etsə də, onun tətbiqi həm üstünlüklərə, həm də məhdudiyyətlərə malikdir. Neorealizm dövlətlərin davranışlarını beynəlxalq və regional sistemin strukturundan asılı olaraq izah edir və tədqiqatçılara kompleks sistemlərdə sadə analitik modellər təqdim edir. Lakin bu yanaşma daxili siyasət, qeyri-dövlət aktorları və qeyri-ənənəvi təhlükəsizlik problemlərini izah etməkdə məhdudiyyətlərə malikdir. Buna baxmayaraq, bu nəzəriyyə regional tədqiqatlarda əsas nəzəri yanaşmalardan biri olaraq qalır və müxtəlif regionların müqayisəli təhlilində mühüm rol oynayır. Tədqiqatçılar onun məhdudiyyətlərini nəzərə alaraq, digər nəzəriyyələrlə inteqrasiya edərək daha zəngin və çoxşaxəli analizlər həyata keçirə bilərlər.

**Nəticə**

Aparılmış tədqiqat göstərir ki, neorealizm beynəlxalq münasibətlərin öyrənilməsində nəzəri-metodoloji baza kimi mühüm əhəmiyyət daşıdığı kimi, regional tədqiqatlarda da çoxşaxəli imkanlar təqdim edir. Bu nəzəriyyə dövlətlərin davranışlarının beynəlxalq sistemin struktur xüsusiyyətlərindən asılı olduğunu vurğulayaraq, regional sistemlərin qlobal güc dinamikaları ilə əlaqəsini dəqiq izah etməyə imkan verir. Məqalədə neorealizmin əsas müddəalarının regional tədqiqatlarda tətbiqinə dair praktiki nümunələr təqdim olunmuş və bu yanaşmanın tədqiqatçılar üçün analitik çərçivə yaratdığı göstərilmişdir. Tədqiqatda əsas diqqət Cənubi Qafqaz, Yaxın Şərq və digər münaqişəli regionlara yönəldilərək, güc balansı, təhlükəsizlik dilemması və sistemin anarxik təbiətinin bu regionlardakı dövlətlərin davranışlarına təsiri təhlil olunmuşdur. Tədqiqatda ortaya qoyulan problem geniş şəkildə araşdırılmış, lakin neorealizmin bəzi məhdudiyyətləri də nəzərə alınmışdır. Məsələn, bu yanaşmanın dövlətlərin daxili siyasətlərini və qeyri-dövlət aktorlarının təsirini nəzərə almaması bəzi regional problemlərin tam izah olunmamasına gətirib çıxara bilər. Bununla belə, məqalə göstərir ki, neorealizmin əsas üstünlüklərindən biri onun struktur səviyyəsində kompleks məsələləri sadə analitik modellərlə şərh etmək qabiliyyətidir. Bu, xüsusilə müxtəlif regionlarda güc balansı və təhlükəsizlik məsələlərini müqayisəli şəkildə araşdırmaq üçün dəyərli bir yanaşmadır.

Tədqiqatımız göstərir ki, neorealizm tədqiqatçılar üçün həm nəzəri, həm də metodoloji

baxımdan əhəmiyyətli imkanlar yaradır. Lakin tədqiqatda vurğulanan bir məqam da odur ki, neorealizmin digər nəzəri yanaşmalarla inteqrasiyası bu çərçivənin zənginləşdirilməsi üçün vacibdir. Məsələn, konstruktivist yanaşmaların etnik, dini və ideoloji faktorları nəzərə alaraq neorealizmin struktur izahlarını tamamlaması mümkündür. Bu cür inteqrativ yanaşma regional problemlərin daha dərin və çoxşaxəli təhlilinə imkan verərdi. Tədqiqatçılar neorealizmi regional tədqiqatlarda tətbiq edərkən, nəzəriyyənin məhdudiyyətlərini nəzərə almalı və onu digər yanaşmalarla zənginləşdirməlidirlər. Bunun üçün konstruktivist, liberal və s. yanaşmalardan istifadə edərək, regional sistemlərin struktur səviyyədə daha əhatəli təhlilini həyata keçirmək mümkündür. Eyni zamanda, qeyri-dövlət aktorlarının regional güc balansına təsirini öyrənmək üçün neorealist çərçivəni genişləndirmək və ya modifikasiya etmək də faydalı ola bilər. Bu yanaşma tədqiqatların həm nəzəri, həm də praktiki əhəmiyyətini artıraraq, beynəlxalq münasibətlərin öyrənilməsi sahəsində yeni perspektivlər təqdim edə bilər.

## ƏDƏBİYYAT


1. Aras H. & İşyar Ö.G. Rusya'nın Suriye Krizine Müdahalesinin Neorealizm Çerçevesinde Analizi//. TESAM Akademi Dergisi, 2023, 10(2), s.513-529. (https://doi.org/10.30626/tesamakademi.1333796).
2. Cahangirli C., Cabarov C. Bölgesel Güvenlik Bağlamında Güney Kafkasya'da Perspektifler // Kafkasya: Tarih ve Politika. Türkçe Özel Seri. Saarbrücken: LAP LAMBERT Academic Publishing, 2023, s.76-108. ISBN: 978-620-7-45310-8.
3. Kökyay F. Neorealizm Kuramı ve Türkiye'nin Doğu Akdeniz Enerji Politikası. İnsan ve Toplum Bilimleri Araştırmaları Dergisi, 2020, 9(3), s.2504-2528. (https://doi.org/10.15869/itobiad.755012).
4. Özdoğan M. Realizm ve neorealizm bağlamında soğuk savaş sonrası güvenlik anlayışının değerlendirilmesi // Güvenlik Bilimleri Dergisi, 2019, 8(1), s. 1-24. (https://doi.org/10.28956/gbd.562934)
5. Serdar, İ. Neorealizm, Neoliberalizm, Konstraktivizm ve İngiliz Okulu Modellerinde Uluslararası Sistemsel Değişikliklere Bakış // The Journal of Europe - Middle East Social Science Studies, 2015, 1(1), s. 14-38. (https://doi.org/10.21085/jemsos.40622)
6. Şahin M. Neo-realist perspektiften başarısız devletler kavramsallaşmasının değişimi//. Aksaray Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi Dergisi, 2013, 5(1), s. 25-40.
7. Şöhret M. Realizm Çerçevesinde Avrupa Birliğinin Bütünleşmesi//. İnsan ve Toplum Bilimleri Araştırmaları Dergisi, 2012, 1(4), s. 288-330.
8. Tokatlı S. G. Klasik realizm ve neorealizm kuramının incelenmesi: devlet kavramına yönelik analiz//. Ufuk Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, 2022, 11(21), s. 122-141.
9. Tüysüzoğlu G. Çatışma ve İşbirliği Dikotomisi Bağlamında Balkanlar'ın Siyasal Görünümü // Avrasya Etüdleri, 2012, 42(2), s. 83-110.
10. Abo Rezeg, A. Understanding Iran-Hamas Relations from a Defensive Neo-Realist Approach // İran Çalışmaları Dergisi, 2020, 4(2), pp.385-409. (https://doi.org/10.33201/iranian.760658).
11. Fabbri L. Neorealism as Ideology: Bazin, Deleuze, and the Avoidance of Fascism // The Italianist, 2015, 35(2), pp. 182-201. (https://doi.org/10.1179/0261434015Z.000000000115).
12. Götz E. Neorealism and Russia's Ukraine policy, 1991-present//. Contemporary Politics, 2016, 22(3), pp. 301–323. (https://doi.org/10.1080/13569775.2016.1201312).
13. Löhrer M. The frozen conflict between China and Taiwan through the lens of three international relations theories. Tilburg: Tilburg University, 2022, 172 p.
14. Simón L. Neorealism, Security Cooperation, and Europe's Relative Gains Dilemma // Security Studies, 2017, 26(2), pp.185-212. (https://doi.org/10.1080/09636412.2017.1280297).

***Резюме***

***Вафа Исмаилова***

***Неореализм как теоретико-методологическая основа для региональных исследований***

Данная статья исследует место неореализма в теории международных отношений и возможности его применения в качестве теоретико-методологической основы для региональных исследований. Неореализм, связывающий поведение государств со структурными характеристиками международной системы, представляет значительные перспективы как в теоретическом, так и в практическом плане. В статье анализируются фундаментальные принципы, история развития и основные положения неореализма. Основное внимание уделяется применению этой теории в региональных системах, таких как Южный Кавказ, Ближний Восток и Южная Азия. Исследование показывает, что неореализм, акцентируя внимание на анархической природе международной системы и балансе сил, является эффективным инструментом для анализа структурной динамики межгосударственных отношений. В статье также рассматриваются методологические преимущества и ограничения неореализма в региональных исследованиях. Так, данный подход позволяет исследовать межгосударственные отношения на структурном уровне и применять такие концепции, как баланс сил и дилемма безопасности. Однако ключевыми недостатками неореализма являются недостаточное внимание к влиянию негосударственных акторов, а также этнических и идеологических факторов. Для преодоления этих ограничений необходима интеграция неореализма с конструктивистскими и другими теоретическими подходами. Результаты статьи показывают, что неореализм остается одной из ключевых теорий в региональных исследованиях и играет важную роль в сравнительном анализе различных регионов. Однако для его обогащения и расширения необходимо адаптировать теорию к другим подходам. Исследователям рекомендуется учитывать ограничения теории и проводить более инклюзивный и многогранный анализ. Такой подход способствует более глубокому пониманию региональных и международных систем и развитию новых научных перспектив.

**Ключевые слова:** *Неореализм, региональные исследования, теоретико-методологическая основа, Южный Кавказ*

***Summary***

***Vafa Ismayilova***

***Neorealism as a Theoretical-Methodological Framework for Regional Studies***

This article examines the role of neorealism in international relations theory and its applicability as a theoretical-methodological framework for regional studies. Neorealism, which links state behavior to the structural characteristics of the international system, offers significant perspectives in both theoretical and practical dimensions. The article analyzes the fundamental principles, developmental history, and main propositions of neorealism. The focus is placed on the application of this theory to regional systems, particularly in regions like the South Caucasus, the Middle East, and South Asia. The study demonstrates that neorealism, by emphasizing the anarchic nature of the international system and the balance of power, serves as an effective tool for explaining the structural dynamics of interstate relations. The article also addresses the methodological advantages and limitations of neorealism in regional studies. This approach allows researchers to analyze interstate relations at the structural level and apply concepts such as the balance of power and the security dilemma. However, the main shortcomings of neorealism include insufficient attention to the influence of non-state actors and the neglect of ethnic and ideological factors. To overcome these limitations, the integration of neorealism with constructivist and other theoretical approaches is considered necessary. The findings of the article show that neorealism remains one of the key theoretical approaches in regional studies and plays a significant role in the comparative analysis of different regions. Nevertheless, enriching and expanding the theory requires its adaptation to other frameworks. Researchers are advised to consider the limitations of the theory and conduct more inclusive and multifaceted analyses. Such an approach will contribute to a deeper understanding of regional and international systems and foster the development of new scientific perspectives.

**Key words:** *Neorealism, regional studies, theoretical-methodological framework, South Caucasus.*

Baş redaktorun müavini s.e.d., prof. İbrahimova Gülzar İsaxan qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.